# UNUDULMUŞ ƏLYAZMAÇI

İnsanı yaşadan, gələcək nəsillərə tanıdan və sevdirən onun gördüyü işlərdir. Hələ bu işlər elm və maarif yolunda görülmüşsə, o zaman qiyməti və dəyəri qat-qat yüksək olur. Adam var yaradıcılığı və fəaliyyəti kəmiyyətcə çox, keyfiyyətcə azdır. Sanki dövrün tələbinə cavab vermək istəyirmiş kimi yazıb-yaratmağa çalışmış, qələmin mürəkkəbini boşuna sərf etmişdir. Adam da var bir kitab, bir neçə məqalə və barmaqla sayılası qədər araşdırmaları ilə yüzillər keçsə belə, elmin inkişafına töhfə verəcək işlərə imza atmışdır. Məhz Asya Məmmədova kimi. Hansı ki, indiyə qədər istər elmi-pedaqoji fəaliyyət və yaradıcılığı, istərsə də çətin və keşməkeşli həyatı haqqında bir tezislə belə xatırlanmayan unudulmuş pedaqoq və əlyazmaçı Asya Məmmədova. Əslində Asya xanımın həyat və fəaliyyətini araşdırmaq, ələlxüsus, M.Füzuli adına Əlyazmalar İnstitutundakı xidmətlərini tədqiq etmək gündəlikdə duran məsələlərdən deyildi. Mövzumuzla əlaqədar olaraq A.Məmmədovanın "Bayatılar" kitabını və şifahi xalq ədəbiyyatı ilə bağlı qələmə aldığı məqalələrini oxuduqca bu böyük işin sahibini daha yaxından tanımaq istədik. Hər hansı bir məlumat tapmaq ümidi ilə əvvəlcə ən ibtidai axtarışdan - internet üzərindən araşdırma apardıq. Təəssüf və təəccüb hissi ilə qeyd etmək istərdik ki, Asya xanım haqqında hər hansı materiala (bir-iki mənbə istisna olmaqla) rast gəlmədik. İstədiyimiz nəticəni ala bilməyib Əlyazmalar İnstitutunda saxlanılan şəxsi sənədlərlə bağlı arxivə və İnstitutun kitabxanasına müraciət etdik. Ömrünün yarıdan çoxunu sağalmaz xəstəliyi ilə mübarizədə keçirən Asya Məmmədova haqqında nə tapdıqsa, həmin arxiv materiallarından tapdıq. Keşməkeşli ömrünün təxminən 20 ilini müəllim, tam 20 ilini isə Əlyazmalar İnstitutunda keçirən Asya xanım haqqında topladığımız məlumatları siz oxucuların diqqətinə çatdırırıq.

Məmmədova Asya Sadıx qızı 1905-ci ildə yanvarın 22-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Yuxarı Əylis kəndində anadan olmuşdur. Atası inqilabdan əvvəl yoxsul kəndli olmuşdur. İnqilabdan sonra isə Ordubad ipək fabrikində fəhlə işləmiş, 1948-ci ildə vəfat etmişdir. Anası evdar qadın olmuş və 1969-cu ildə vəfat etmişdir. O, ibtidai təhsilini evdə, sonradan isə kənd məktəbində almışdır. 1925-ci ildə Naxçıvan şəhərində açılmış Qız Pedaqoji Texnikomunun hazırlıq sinfinə və sonradan əsasına daxil olaraq oranı 1931-ci ildə bitirmişdir. Elə həmin il Ordubad rayonunun Dırnıs kənd məktəbinə müəllim təyin olunaraq 1934-cü ilə qədər orada işləmişdir. 1934-cü ilin yayında Qubada təşkil olunmuş 2 aylıq ixtisas kursunun dil-ədəbiyyat şöbəsində oxumuş, 1934-cü ilin 1 sentyabrından 1937-ci ilin 20 iyuluna qədər Azərbaycan SSR Maarif Nazirliyi Şamaxı şəhər orta məktəbində müəllim olaraq işləmişdir. Daha sonra ailə vəziyyəti və xəstəliyi ilə əlaqədar olaraq Batumiyə getmişdir. 1937-ci ilin 1 sentyabrından 1938-ci ilin 1 iyuluna qədər Gürcüstan SSR Acariya (indiki Acarıstan Muxtar Respublikası) Maarif Nazirliyinin xətti ilə Batumidəki Azərbaycan məktəbində dil və ədəbiyyat müəllimi olaraq pedaqoji fəaliyyətini davam etdirmişdir. Müəllimlik etdiyi məktəb bağlandığı üçün Asya xanım Batumidən Bakıya qayıdaraq Biləcəri qəsəbəsində yerləşən 93 nömrəli məktəbdə sinif müəllimi işləmişdir (1938-1939).

A.Məmmədova təhsilini artırmaq üçün öz xahişi ilə Bakı Xalq Maarif şöbəsi tərəfindən azad olunaraq 1940-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) hazırlıq kursuna, sonra isə həmin universitetin filologiya fakültəsinə daxil olmuşdur. Vətən müharibəsinin başlanması Asya xanımı təhsilini yarımçıq buraxmaq məcburiyyətində qoymuşdur. Belə ki, həyat yoldaşı Vətən müharibəsi zamanı Qızıl Ordu sıralarına getdiyindən Asya xanım təhsilini davam etdirə bilməyib Maarif Nazirliyinin əmri ilə Zaqatala rayonu Maarif şöbəsi sərəncamına gedərək 1942-ci ilin 1 sentyabrından Azərbaycan SSR Xalq Daxili İşlər Nazirliyinin Zaqatala 4 nömrəli "Uşaq Zəhmət Koloniyası" orta məktəbinə müəllim təyin olunmuş və 1945-ci ilin 20 sentyabrına qədər həmin məktəbdə çalışmışdır.

Vətən müharibəsi bitdikdən sonra həyat yoldaşı Qızıl Ordu sıralarından tərxis olunduğu üçün Xalq Daxili İşlər Nazirliyi tərəfindən azad edilərək təkrar təhsilini davam etdirmək məqsədilə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin türk qrupuna daxil olmuşdur. 1950-ci ildə Şərqşünaslıq fakültəsini bitirən Asya Məmmədova Zaqatala şəhər 1 nömrəli orta məktəbinə dil-ədəbiyyat müəllimi göndərilmişdir.



*Oturulu halda: Cahangir Qəhramanov, Asya Məmmədova, Cənnət Nağıyeva. Ayaqüstə: Şamil Cəmşidov, Nəsrəddin Qarayev, Elmira Seyidbəyli. Şəklin tarixi: 20 dekabr 1974-cü il (İndiki M.Füzuli adına Əlyazmalar İnstitutu).*

1950-51-ci tədris ili bitdikdən sonra Maarif Nazirliyinin əmri ilə azad olunaraq öz ixtisası üzrə Azərbaycan Baş Radio Verilişləri redaksiyasında makinaçı işləmişdir. Uzun müddət müalicə tələb edən xəstəliyinə görə 1954-cü ildə öz xahişi ilə həmin işdən azad edilmişdir. 1954-58-ci illərdə səhhətindəki ciddi problemlərlə əlaqədar olaraq işləyə bilməmişdir.

Dörd illik uzun fasilədən sonra Asya Məmmədova Azərbaycan SSR EA Respublika Əlyazmaları fondunun (indiki M.Füzuli adına Əlyazmalar İnstitutu) baş laborantı vəzifəsinə təyin edilmiş (27.01.1958), iki il baş laborant işlədikdən sonra Rəyasət heyətinin 84 nömrəli sərəncamına dəyişiklik olaraq yeni verilən ştat hesabına 1960-cı il fevral ayının 15-dən etibarən kiçik elmi işçi olaraq fəaliyyətini davam etdirmişdir. A.Məmmədova əvvəllər "Qədim çap kitabları və dövri mətbuat şöbəsi"ndə, sonralar isə "Türkdilli əlyazmaların tədqiqi şöbəsi"ndə işləmişdir.

Respublika Əlyazmalar Fondunda işlədiyi 20 il ərzində Asya xanım əlyazmalar üzərində apardığı geniş və sistemli araşdırmalardan faydalı nəticələrə gəlmişdir. Fondun əsas profili olan "Əlyazmaların izahlı təsviri kataloqu"nun 1, 2 və 3-cü cildinin hazırlanmasında yaxından iştirak etmişdir. Cahangir Qəhramanov, Məmmədağa Sultanov, Fazil Seyidov, Sulduz Bağırzadə, Şamil Cəmşidov, Cənnət Nağıyeva, Nəriman Qarayev, Əzizə Cəfərzadə, Mehri Məmmədova, Əzizağa Məmmədov kimi elm xadimləri ilə çiyin-çiyinə çalışan Asya Məmmədova 270 ədəd əlyazmanı təsvir etmişdir. Bununla yanaşı, Asya xanım 1960-63-cü illər ərzində XX əsrin görkəmli satirik şairi Əli Nəzmi arxivinin təsvirini əlyazma şəklində vermişdir. Təəssüf ki, bu təsvir Asya xanımın sağlığında çap olunmamış, hazırda əlyazma şəklində Əlyazmalar İnstitutunun elmi arxivində 11 nömrəli qovluqda saxlanmaqdadır. Həmin təsvirlə əyani tanışlıqdan sonra qeyd etmək olar ki, görünür, Asya xanım bu təsviri kitab şəklində çap etdirməyi düşünmüş, amma naməlum səbəblərdən etdirə bilməmişdir. Çünki Əli Nəzmi arxivindəki materialların hər birinin üzərində dəqiqliklə işləmiş, hətta arxivdəki şəxs və yer adlarını əlifba sırasına uyğun olaraq sistemləşdirmişdir. O, həmçinin, osmanlı türk şairi Əlaəddin Sabit Bosnəvi (1650-1712) və onun avtoqraf "Külliyyat"ı haqqında Azərbaycan ədəbiyyatında ilk məlumatı vermişdir. "Külliyyat"la yaxından tanış olan Asya xanım onun paleoqrafik təsvirini vermiş, 1961-ci ildə "Respublika Əlyazmalar İnstitutunun əsərləri" (I cild) adlı məcmuədə kiçik, amma dəqiq və dolğun məqalə ilə çıxış etmişdir. Yuxarıda qeyd etdiyimiz Əli Nəzmi arxivinin təsviri və Ə.S.Bosnəvi "Külliyyat"ı haqqındakı araşdırmaları ilə yanaşı, fondda işlədiyi 20 il ərzində heç şübhəsiz ki, ən çox əmək və zəhmət sərf etdiyi tədqiqat işi şifahi xalq ədəbiyyatı nümunələrini müxtəlif mənbələrdən toplayaraq transfoneliterasiya etməsidir. Belə ki, Asya Məmmədova Respublika Əlyazmalar Fondunda mühafizə edilən yüzlərlə əlyazma, arxiv və fraqmentlərdən əldə etdiyi bu əvəzsiz nümunələr üzərində xeyli vaxt sərf etmiş, hətta nümunələrin əsli ilə xalq arasında yayılmış variantlarını müqayisə etmişdir.

Asya Məmmədova titul səhifələrində, cildin iç üzündə, səhifələrin haşiyələrində katib, folklor həvəskarları və başqaları tərəfindən yazıya köçürülmüş minlərlə şifahi xalq ədəbiyyatı nümunələrinin tədqiqinə 1960-cı ildən başlamışdır. Gərgin və yorulmaz əməyinin nəticəsi olaraq, yuxarıda qeyd etdiyimiz müxtəlif mənbələrdən toplayıb transfoneliterasiya etdiyi bayatıları 1977-ci ildə kitab şəklində çap etdirir. Kitabda 2000-dən çox bayatı nümunəsi öz əksini tapmışdır. Asya xanım Rəşid bəy Əfəndiyev tərəfindən qeydə alınmış 9 ədəd layla nümunəsini də kitabın son səhifələrində qeyd etmişdir. Asya Məmmədova təkcə bayatı nümunələri üzərindəki tədqiqatı zamanı 92 mənbəyə müraciət etmişdir ki, bunlardan 74-ü müxtəlif əlyazma və cüng, 7-si görkəmli ədib və mədəniyyət xadimlərimizin arxivində mühafizə olunan bayatı dəftərləri, 11-i isə fraqment səhifələrində yazılmış bayatılardır. O, sözügedən kitabdakı bayatı nümunələrini xronoloji ardıcıllıqla verməklə kifayətlənməmiş, misralarında vəzn pozğunluğu olan bayatı nümunələrinin artıq görünən heca və ya sözlərini (-) işarəsilə bayatıdan çıxarmış, çatmayan heca və ya sözləri (+) işarəsi ilə əlavə etmişdir. Məsələn:

Mən aşiq (+əm) daldadı,<br>
Xal (-ın) (+ların ay) daldadı.<br>
Camal (-ın) (+a) (-görməyə)<br>
həsrət oldum<br>
Məni gördü daldadı.

Şübhə yoxdur ki, Asya Məmmədovanın Əlyazmalar İnstitutundakı elmi fəaliyyətinin zirvəsi 1977-ci ildə çapdan çıxan "Bayatılar" kitabıdır. Amma onun folklor nümunələri üzərində olan tədqiqat və araşdırmaları bununla bitmir. "Əlyazmalarında bəzi şifahi xalq ədəbiyyatı materialları (Atalar sözü və zərbül məsəllər) ("Respublika Əlyazmaları Fondunun Əsərləri", 1963), "Əlyazmalar xəzinəsində" məcmuəsinin III cildində nəşr olunan "Əlyazmalarında bəzi şifahi ədəbiyyat materialları (Bayatılar)" (1972), yenə həmin məcmuənin IV və V cildlərində müvafiq olaraq çap olunan "Əlyazmalarındakı şifahi ədəbiyyat nümunələrinə dair" (1976)və "Yazılı ədəbiyyatda tapmacalar" (1979) adlı məqalələri onun qədim və zəngin şifahi ədəbiyyat xəzinəsinə töhfəsidir.

Ümumilikdə isə, Asya Məmmədova Əlyazmalar İnstitutunda saxlanılan 107 mənbədə folklorun müxtəlif janrlarına aid nümunələr üzərində geniş araşdırma aparmışdır. Bu mənbələrdən 2420 bayatı və mahnı, 285 tapmaca, 18 qıfılbənd, 1435-dən artıq atalar sözü və zərbi-məsəli toplayaraq tədqiqata cəlb etmişdir.

Asya Məmmədova haqqında araşdırmamızı onun şəxsi sənədləri arasından tapdığımız məlumatlarla davam etdirmək istərdik. Belə ki, sənədlər arasında ən çox diqqətimizi çəkən onun xəstəliyi ilə əlaqədar götürdüyü məzuniyyətləridir. Hətta 1975-76-cı illərdə bir neçə ay fərqlə ardarda məzuniyyətə çıxması xəstəliyinin ciddiliyindən və ağırlığından xəbər verirdi. Bunun nəticəsi olaraq Asya xanım 02.10.1978-ci ildə öz ərizəsi ilə işdən azad edilərək təqaüdə çıxmışdır.

Asya Məmmədova 1983-cü ilin 8 sentyabrında vəfat etmiş, "Qurd qapısı" qəbristanlığında dəfn edilmişdir. Ailə üzvləri ilə apardığımız söhbətlər nəticəsində məlum oldu ki, Asya xanımın özündən sonra hər hansı arxivi qalmamışdır. Asya Məmmədovaya aid arxiv sənədlər içərisində diqqəti cəlb edən məqamlardan biri də onun ağır mənzil şəraitinin olmasıdır. Həmin arayışda Asya Məmmədovanın mənzil şəraitinin ağır olduğu, 1959-cu ildən iş yerindən mənzil almaq üçün hesaba alındığı və yaxın vaxtlarda mənzillə təmin edilməsinin nəzərdə tutulduğu qeyd olunur.

Araşdırmamızı Əlyazmalar İnstitutunun "Farsdilli əlyazmaların tədqiqi şöbəsi"nin müdiri filologiya elmləri doktoru Nəsib Göyüşovun Asya xanım haqqında xatirəsi ilə sonlandırmaq istərdik. Nəsib müəllim deyir: "Asya xanımla birlikdə işlədiyimiz vaxt indiki Əlyazmalar İnstitutu Rəyasətin binasında yerləşirdi. Həmin binada onunla birlikdə lifti gözləyirdik. Başımız söhbətə qarışdığı üçün lifti çağırmağı unutmuşduq. Bir də baxdıq ki, kimsə lifti yuxarıdan çağırdı. Elə bu andaca Asya xanım gözəl bir ifadə işlətdi: "Fürsət qanadlı bir quşdur, kim əldən versə, sərxoşdur".

***Jalə RÜSTƏMOVA,***
***AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, elmi işçi.***